# Muzeylər

**Mədəniyyət müəssisələrindən biri kimi muzeylər - tarixi yaddaşları əks etdirən, zamanın sınağından çıxaraq zənginləşən, nəsillərdən-nəsillərə yadigar qalan ən qiymətli xəzinədir. Mədəniyyətimizin ən önəmli səhifələri mənim fikrimcə bizim ornamentlərimizə yazılıb.**

## ornamental sənətimizin qoruyucusu kimi

**Ornamentlər gözəlliyi tərənnüm etməklə yanaşı, tariximizin, mədəniyyətimizin aynası, həm də fikir, duyğu və fəlsəfəmizin canlı, əyani tarixidir. Bu sənət çox qədim sənətdir.**

Ornamentlərimiz məişət əşyaları, silahlar, geyimlər, xalçalar, ağac üzərində oymalar, bəzək əşyaları və bir çox tətbiqi sənət əsərlərini bəzəməkdədir. Butalar, islimi naxışlar, ərəb əlifbasının müxtəlif üslublarında yazılmış yazılar, heyvan, quş rəsmləri və sairələr ornamental sənətin naxışlarındandır.

Hələ dörd min il bundan əvvəl Azərbaycan ərazisində yaşayan müxtəlif tayfaların gildən, daşdan, metaldan orijinal formalı qab-qacaq, müxtəlif silahlar və bəzək əşyaları düzəltdikləri, onlardan istifadə etdikləri tarixdən bizə məlumdur. Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Məşhur tarixçilərdən Əbu Cəfər Məhəmməd Təbəri (839-923) Azərbaycanın ərəblər tərəfindən işğalından danışarkən yazır ki, 22-ci hicri ilində (eramızın 642-ci ilində) Azərbaycanın şimal-şərqində yüksək keyfiyyətli xalçalar istehsal olunmuşdur. Tarixçi və səyyah Əl-Müqəddəsi (X əsr) Azərbaycanın Bərdə şəhərini, onun bazarını təsvir edərək yazır: "...Bu bazarda ipək və geyim şeyləri satılır, burada toxunan xalçaların misli yoxdur".

Xalçaların təsvirinə həmçinin Azərbaycan klassik ədəbiyyatında, xüsusilə Qətran Təbrizinin (XI əsr), Nizami Gəncəvinin, Xəqani Şirvaninin (XII əsr) və başqalarının əsərlərində rast gəlinir.

XIII əsrdə Şərqi gəzib dolaşmış məşhur venetsiyalı səyyah Marko Polo yazır: "Azərbaycanda bütün dünyada şöhrət qazanmış parçalar, xalçalar və qılınc tiyələri hazırlayan xeyli gözəl sənətkar var".

Sonrakı yüzilliklərdə Azərbaycan sənətkarlığının getdikcə inkişaf etməsi, zənginləşməsi, bu nümunələrin dünya muzeylərində, şəxsi kolleksiyalarda qorunması, nümayiş etdirilməsi bir daha onu sübut edir ki, bizim istedadlı sənətkarlarımızın hazırladıqları gözəl incilər dünya incəsənətinin inkişafına təkan vermişdir.

İndi Londonun "Viktoriya və Albert" (2, səh. 66), Parisin "Luvr", Nyu-Yorkun "Metropoliten", həmçinin Vyananın, Romanın, Florensiyanın, Berlinin, İstanbulun, Bağdadın, Tehranın, Qahirənin, Sankt-Peterburqun, (2, səh. 115), Moskvanın zəngin muzey kolleksiyalarına baxarkən orada Bakı,Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Şəki, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə müxtəlif tarixi dövrlərdə yaradılmış sənət nümunələrini görmək olar (2, səh. 66, 115).

Dünya muzeylərinin bəzəyi sayılan bu nadir sənət əsərlərimizin Avropa, Asiya, Amerika qitəsindəki ölkələrin muzey və şəxsi kolleksiyalarına yayılması da böyük bir tarixə malikdir. Onların bir çoxu ayrı-ayrı şəxslərdən alınmış, bəzilərini müxtəlif vaxtlarda ölkəmizdə olmuş əcnəbi səyyah, tacir, diplomat və alimlər gətirmiş, bəziləri isə qarət olunmuşdur.

Azərbaycan xalqı özünün çoxəsrlik tarixi boyunca zəngin və özünəməxsus mədəniyyət yaratmışdır və onun fəaliyyətinin ən yüksək inkişaf etmiş sahələrindən biri dekorativ-tətbiqi incəsənətdir. Bu sənətlər qədimdən mövcuddur. O, bədii sənətin müxtəlif növlərini əhatə edir, onların arasında döymə sənəti və zərgərlik, metal üzərində işləmələr, ağac, daş və sümük üzərində oyma naxış, xalçaçılıq, hörmə sənəti, ornamental toxuculuq və basmanaxış, toxuma və bədii tikmələr və bir çox digərlərini göstərə bilərik. Dekorativ-tətbiqi sənətə el arasında "Xalq sənəti" də deyilir. Xalq sənəti- xalqın əməyi sayəsində yaranıb onun həyatını təmin edən və özündə xalqın bədii zövqünü əks etdirən təsviri və tətbiqi sənətə deyilir. Azərbaycan bədii tikmələrinin texnika və kompozisiyası öz kökləri ilə uzaq keçmişlərə gedib çıxır və xalqın mədəniyyətinin varisliyini sübut edir.

Milli-mədəni gerçəkliklərimizin aynası olan ornamentlərimiz bizim milli xüsusiyyətlərimizi əks etdirərək kökümüzün, mənsubiyyətimizin haralardan gəldiyini sübut edən başlıca amillərdəndir. Hər bir xalqın bu günü onun keçmişi ilə sıx bağlıdır. Haradan gəldiyini bilməyən şəxs haraya gedəcəyini də müəyyənləşdirə bilməz. Bu baxımdan keçmiş, bu gün hara gedəcəyimizi müəyyənləşdirmək üçün etibarlı dayaq nöqtəsidir.

Bəs bu sənətimiz muzeylərimizdə necə mühafizə olunur, hansı muzeylər daha qabarıq bu sənət nümunələrini qoruyub-saxlayıb mühafizə edir? Bu muzeylər sırasında Azərbaycan xalqının maddi və mənəvi irsini təşkil edən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyidir. Muzey dünyada xəzinəsindəki nadir xalçaların dəyərinə və əhəmiyyətinə görə ən böyük xalça kolleksiyası, xalça sənəti üzrə birinci, nüfuzlu, ixtisaslaşmış muzeydir.

XIII - XIV əsrlərdə Azərbaycandan xarici ölkələrə çoxlu xalça və xalça məmulatı ixrac edilirdi. İncə ornamentləri, zərif və nəfis naxışları ilə diqqəti cəlb edən bu xalçalar məşhur Avropa rəssamlarının əsərlərində öz əksini tapmışdır.

XV əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçası, Van Eykin "Müqəddəs Məryəm" əsərində "Zeyvə" xalçası, alman rəssamı Hans Holbeynin (XV əsr) "Səfirlər" əsərində "Qazax" xalçasının təsvirləri verilmişdir. Muzeyin ekspozisiyasında Azərbaycanın Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi klassik xalça məktəblərinə məxsus olan xalçalar öz kompozisiya və ornament quruluşlarına, eləcə də rəng həllinə görə diqqəti cəlb edir.

Qubada toxunan xalçalardan -"Pirəbədil", "Qımıl", "Sırt-Çiçi" zərifliyi, rəsm və naxış elementləri, ayrıntılarının nəcibliyi, səthə taxılmış kimi görünən - toxunması belə hiss olunmayan elementləri, xırdalanmış cizgi rəsmi, yığcam rəng qammaları ilə insanı heyran edir. Şirvan xalçalarından - "Muğan", "Şilyan" bir növ ilk - qədim xalçalarımıza oxşayır. Bu xalçalarda qədim xalça kompozisiyaları ciddi ritmlə realizə edilir, sakit kolorit üstündür.

Qarabağ xalçaları - "Xanlıq", "Malıbəyli", "Ləmpə"də yüksək kompozisiya ustalığı, ağlasığmaz fantaziya, kolorit əlvanlığı ön planda dayanır. Bakıda hazırlanan xalçalardan - "Xilə - Buta"nın, "Novxanı"nın, "Fatmayi"nin zərif cizgi rəsmi, mürəkkəb ornamentləri vardır. Olduqca böyük şərtiliyə əsaslanan "Faxralı", "Şıxlı", "Borçalı", "Qaçağan", "Qədim Göyçə", "Dəmirçilər" kimi Gəncə və Qazax məktəblərinə aid xalçalarda əsasən naxışların həndəsi üslubuna daha çox üstünlük verilir.

Bu naxışlar kainatın sirlərini, mistik təsəvvürləri damğalar və cizgilərin dili ilə bizlərə yetirirlər. Təbriz xalçalarından - "Sərabi", "Əfşan", "Ləçək - Turunc"da dairəvi və ya spiralvari plastik formaların dekoru, dünyanın əbədiliyi, gözəlliyi və həyat ritmi haqqında təsəvvür yaradır. Muzeyin ekspozisiya və fondlarında palas, cecim, kilim, şəddə, zili, ladı, vərni və sumax daxil olan bir-birindən rəng çalarları, çeşniləri və texnoloji toxunma üsulları ilə seçilən xovsuz xalçalar, məişətdə geniş utelətar əhəmiyyət kəsb etməklə yanaşı, yaraşıqlı bəzək elementləri ilə toxunulmuş məfrəş, xurcun, heybə, çanta, çul, xaral və s. kimi xalça məmulatları da toplanmışdır.

Muzeyin zəngin kolleksiyasında qiymətli metaldan hazırlanmış zərgərlik məmulatları, zinət əşyaları və soyuq silahlar; çini, kağız, şüşə, ağac və daş üzərində oyma ilə işlənmiş əşyalar; bədii tikmə, parça və kişi, qadın, uşaq milli geyimləri; zərif naxışlı bədii metal məmulatları və s. kimi xalq tətbiqi sənət nümunələri nümayiş etdirilir. Onların içərisində tunc dövrünə aid edilən tunc və keramikadan düzəldilmiş, üzəri həndəsi və zoomorf naxışlarla bəzədilmiş qablar, silahlar, bəzək əşyaları və s. arxeoloji nümunələr, XIV əsrə aid bədii metal və s. daha çox diqqəti cəlb edir.

Bu muzeydə xalçalarımızla yanaşı, tətbiqi sənət nümunələrimiz, misgərlik nümunələri, arxeoloji qazıntılar zamanı tapılan sənət nümunələrimiz tədqiq olunub, qorunub saxlanılmaqdadır.

Bundan başqa, R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bu muzey qədim əsrlərdən müasir dövrə qədər yaradılmış təsviri və dekorativ-tətbiqi sənət əsərlərinin toplusudur. Təsviri incəsənətin bütün növlərini özündə tam dolğunluğu ilə əks etdirən muzeydə Azərbaycan, Qərbi Avropa, Rus, Şərq ölkələri incəsənəti nümayiş olunur. Azərbaycan Dövlət İncəsənət Muzeyinin zəngin toplusu keçmişin nadir bədii abidələrini görməyə, müasir sənətin xüsusiyyətlərinin açıqlanmasına imkan verir.

Milli Azərbaycan Tarixi Muzeyi. 1920-ci ildə təsis edilmiş Azərbaycan Tarixi Muzeyi Bakının gözəl memarlıq abidələrindən birində, məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895-1896-cı illərdə tikilmiş mülkündə yerləşir. Muzeyin binasının özü də nadir arxitektura nümunələrindən biridir.

Muzeydə qorunub saxlanılan, sayı 250 000-dən artıq müxtəlif xarakterli, müxtəlif dövrlərə aid, qiyməti heç bir ölçüyə sığmayan maddi-mənəvi mədəniyyət nümunələri 10 fondda saxlanılır.

Arxeoloji fondda qorunan 22 000 eksponat Azərbaycanın poleolitdən tutmuş son orta əsrlər dövrünədək olan tarixinə aiddir...

Azərbaycan tarixinin öyrənilməsi üçün ən mühüm mənbə kimi böyük dəyərə malik olan, müxtəlif dövrlərə aid 150 000 ədədədək sikkə və pul muzeyin numizmatika fondunun bəzəyidir. Qızıldan, gümüşdən, misdən kə-

silmiş bu pullar arasında Azərbaycan ərazisində mövcud dövlətçiliyin rəmzi olan pullarla yanaşı, ölkəmizdə tədavüldə olmuş başqa dövlətlərə məxsus sikkələr də az deyil. Şərq pullarının sayına görə numizmatika fondu keçmiş Sovetlər Birliyi ərazisində əvvəlinci yerlərdən birini tuturdu.

Muzeyin yarandığı ilk gündən bəri fəaliyyət göstərən etnoqrafiya fondu xalqımızın təsərrüfat həyatına və məişətinə aid 9 000-ə qədər eksponatı əhatə edir.

Milli tətbiqi sənətin və onun inkişaf yolunun öyrənilməsində muzeyin qiymətli metallar fondunun xüsusi əhəmiyyəti vardır. Azərbaycan zərgərlərinin erkən orta əsrlərdən tutmuş tarixiмizin müxtəlif dövrlərində hazırladıqları bu məhsullar öz zərifliyi və quruluşu baxımından fərqlənirlər.

Muzeyin yeni tarix fondu müxtəlif xarakterli 2 000-dən artıq eksponatı əhatə edir.

Muzeyin sənədli mənbələr fondunda 11 000-dən artıq sənəd, fotoşəkil, albom, afişa, qəzet, açıqca və s. qorunur.

Ən yeni tarix fondu 4 000-dən çox, başlıca olaraq əşyayi materialı əhatə etsə də, burada xeyli sənəd, eləcə də bədii sənət nümunələri vardır.

Muzeyin zəngin neqativ fondu, eləcə də kitabxananın tərkibində olan nadir kitablar bölməsi Azərbaycan cəmiyyətinin həyatında baş verən ən mühüm hadisələri əks etdirən fotoların neqativlərini və qiymətli ədəbiyyatı qoruyub saxlayır.

Muzeydə yeni təşkil olunmuş təsviri incəsənət və illüstrasiyalar fondunda 500-ə qədər tablo, illüstrasiya, Azərbaycanın tanınmış rəssamlarının, sənət adamlarının əsərləri və s. qorunur.

Muzeyin fondlarında saxlanılan qiymətli material Azərbaycan tarixinin və mədəniyyətinin əyani təbliğatçısı kimi çıxış etməklə yanaşı, tədqiqat işləri, bir çox monoqrafiya və əsərlər üçün mənbə rolunu da oynayır. Muzeyin zəngin kolleksiyası müxtəlif illərdə nəşr edilmiş buklet, kataloq, kitab, albom və məqalələrin əsasını təşkil etmişdir.

Ölkəmizdə muzeylər nisbətən gec - XIX-XX əsrlərin ayırıcında meydana gəlsə də, əslində xalqımızın qədim və zəngin muzeyçilik, kolleksiyaçılıq ənənələri olmuşdur. Vaxtilə Azərbaycan hökmdarlarının - Atabəylərin, Eldəgizlərin, Ağqoyunluların, Qaraqoyunluların, Səfəvilərin və başqalarının saraylarında qiymətli materiallardan nəfis şəkildə işlənmiş gözəl sənətkarlıq nümunələri, rəsm əsərləri, xalq yaradıcılığı inciləri mühafizə edilirdi. İstər keçmişin bizə gəlib çatan qiymətli tarixi mədəniyyət abidələri, istərsə də müasir dövrdə yaradılmış gözəl sənət nümunələrini gələcək nəsillər üçün mühafizə etmək bu gün olduqca vacib məsələdir.

**Milli və ümumbəşəri mədəniyyətin tarixi keçmişi dərk etmək, onun qədim yaddaş salnaməsini qoruyub saxlamaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq hazırda muzeylərin və muzey işçilərinin qarşısında duran ən ümdə vəzifələrdən hesab olunur.**

**Nərmin ƏZİZOVA,**
**ADMİU-nun kulturologiya fakültəsinin magistri**

## Ədəbiyyat

1. M. Manafova. Mədəniyyət tarixi və nəzəriyyəsi. B. - 2006.
2. Muzeyşünaslıq. B. "Mars-print" - 2002.
3. S.A Əmirxanov, İ. H. Hüseynov. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. B. - 1996.
4. S. Əmirxanov, İ. Hüseynov. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri. B. "Mars - print". - 2008.
5. Y. Eyvazova - Azərbaycan tarixi və mədəniyyət abidələri, onların mühafizəsi. B. "Mars - print". - 2002

## Summary

This article about our museums and our ornamental art. How museums save out history and ornaments. We have many exhibits in foreing museums. In london , in paris , moscow, peterburq and ohter museums of the world.

## Резюме

Эта статья о наших музеях, об орнаментальном искусстве о наших коврах, медных изделиях, о золотых и серебряных украшениях и как они хранятся в наших музеях и в музеях мира. Таких как музеи Лондона, Парижа, Москвы, Петербурга и в другие музеи по всему миру.

Təqdim etdi: ADMİU-nun kulturologiya fakültəsi
Elmi rəhbər: Yeganə Eyvazova, ADMİU-nun muzeyşünaslıq kafedrasının dosenti